# Gəncə: hədəf yenə dinc əhali və mülki obyektlərdir

## Amma düşmənin təxribatı şəhər əhalisinin əzmini qırmır

Erməni işğalçıları cəbhə bölgəsinə yaxın ərazilərlə yanaşı, döyüşlərdən xeyli uzaqda yerləşən şəhərlərimizi də hədəfə almaqda davam edir. Bununla öz acizliyini və qorxaqlığını nümayiş etdirən Ermənistan ordusu Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni üçüncü dəfə raket atəşinə tutmuşdur. Nəticədə Əziz Əliyev prospektində, şəhər sakinlərinin "Təzə bazar" adlandırdıqları ərazidə və şəhər 4 nömrəli tam orta məktəbin yaxınlığında dağıntılar olmuş, təxminən 300 metr radiusdakı mağazaların şüşələri qırılıb tökülmüşdür. Birinci bombardmanda bir nəfər həyatını itirsə və 32 nəfər yaralansa da, xoşbəxtlikdən ikinci və üçüncü raket atəşində insan tələfatı və yaralanan olmamışdır.












Dağlıq Qarabağda gedən döyüşlərdəki uğursuzluğundan və çoxsaylı itkilərindən diqqəti yayındırmaq üçün düşmən Azərbaycanın bu qədim şəhərinə bir neçə gündə 11 mərmi atmışdır. Mərmilərin əksəriyyəti hava hücumundan müdafiə qüvvələrimiz tərəfindən zərərsizləşdirilsə də, 2 raket şəhərin mərkəzinə düşmüşdür.

Oktyabrın 4-də ermənilərin atdıqları raket mərmiləri 6 ailənin yaşadığı evə və sakinlərə məxsus nəqliyyat vasitələrinə ciddi ziyan vurmuşdur. Raket zərbəsinə məruz qalmış ərazilərə dərhal həm hüquq mühafizə orqanlarının əməkdaşları, həm hərbçilərimiz, həm də Fövqəladə Hallar Nazirliyinin əməkdaşları gəlmiş və lazımi kömək göstərmişlər.

Baş verənlərə baxmayaraq, gəncəlilər sarsılmırlar. Hamı əmindir ki, Azərbaycan Ordusu düşmənə adekvat cavab verir. Bu əhvali-ruhiyyəni şəhər əhalisi ilə söhbətdə də hiss etdik. Onlar bir fikri də səsləndirdilər ki, Azərbaycan dövlətinə inanır, Azərbaycan Ordusuna güvənirlər.

Faxrəddin HƏSƏNOV, ziyalı: "Erməni hərbçiləri Gəncəni atəşə tutmaqla özlərinin çarəsizliyini nümayiş etdirirlər. Onlar cəbhədəki uğursuzluqlarından qeyzlənərək dinc əhalini hədəfə alırlar ki, bu da onların düşdükləri ağır vəziyyətdən xəbər verir. Döyüşlər zamanı çox sayda canlı qüvvə və texnika itirən erməni silahlı qüvvələri mülki əhalini ağır artilleriyadan atəşə tutmaqla bizi qorxutmaq istəyir. Lakin biz düşmənin bu hiyləsini yaxşı bilirik və istəyirik ki, onlar da bilsinlər".

Azər SEYİDOV, həkim: "Heç şübhəsiz ki, ermənilərin təxribata əl atmaqda əsas məqsədi həm də bu qədim şəhərdəki abidələri məhv etməkdir, necə ki, Dağlıq Qarabağda işğal altında olan ərazilərimizdəki muzeylərimizi, məscidlərimizi, eləcə də qədim tarixi abidələrimizi dağıtmışlar. Düşmən bu çirkin niyyətini bu gün də davam etdirir. Lakin biz gəncəlilər bundan qorxmuruq. Bilirik ki, ordumuz düşmənin layiqli cavabını verir. Cəbhədən aldığımız şad xəbərlər də bunu göstərir. Ermənilərin həyata keçirdikləri təxribatlardan sarsılmır və Azərbaycan Ordusunun zəfər çalacağı tarixi günü səbirsizliklə gözləyirik".

Tural İBRAHİMOV, sürücü: "Hər dəfə Dağlıq Qarabağın adı çəkiləndə istər-istəməz əllərim əsirdi. Baxmayaraq ki, Azərbycanın o füsunkar bölgəsi mən doğulmamışdan əvvəl işğal olunmuşdu. Ancaq bir azərbaycanlı kimi qanım coşur, döyüşlərin başlanacağı günü səbirsizliklə gözləyirdim. Nəhayət, sentyabrın 27-də arzum gerçəkləşdi. Azərbaycan Ordusu ermənilərin təxribatına qarşı əks-hücuma keçdi və elə ilk gündən nəyə qadir olduğunu sübut etdi. Belə bir vaxtda mən də minlərlə azərbaycanlı gənci kimi könüllü olaraq orduya yazıldım. İndi nə vaxt çağırılacağımı gözləyirəm. Hələlik ordumuzun cəbhədəki uğurlarını izləyirəm. Hər gün eşitdiyim qələbə xəbərləri məni sevindirir. Düşmənin qədim Gəncə torpağını ağır artilleriyadan atəşə tutmasını isə Azərbaycan əsgəri ilə üzüzə döyüşdən qaçan ermənilərin heyfini mülki əhalidən çıxmaq istəməsi kimi dəyərləndirirəm. Lakin bu təxribat bizi öz yolumuzdan döndərə bilməz".

Sahib MƏMMƏDOV, sakin: " Uzun illərdir ki, ticarətlə məşğulam. Səhər "Təzə bazar"dakı iş yerimə təzəcə gəlmişdim. Bu vaxt sanki yerlə göy birləşdi. Qəflətən elə bir gurultu səsi gəldi ki, mənimlə birlikdə ətrafımdakılar da donub qaldıq. Çölə çıxanda gördük ki, bizə çox yaxın bir əraziyə düşən raket partlamış və mağazaları dağıdaraq yerlə yeksan etmişdir. Ətraf tüstü, insanlar təlaş içərisində idi. Xöşbəxtlikdən insan tələfatı olmamışdı. İndi düşünürəm. Görəsən, dinc əhalini hədəfə almaq ermənilərin nəyinə gərəkdir? O dəqiqə də gözlərimin önünə onların türklərə qarşı törətdikləri soyqırımları gəldi. Ancaq bu dəfə onlar istəklərinə nail ola bilməyəcəklər. Güclü ordumuz, cəsarətli Prezidentimiz var. İnanırıq ki, haqq işimiz qalib gələcək və Azərbaycanın işğal olunmuş əraziləri düşməndən azad olunacaq".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.-2020.-9 oktyabr.-S.4.